**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

**"Rəsm 1" fənni üzrə**

**İŞÇİ TƏDRİS PROQRAMI**

**(Sillabus)**

**Əsas dərslik və dərs vəsaitləri**


1. Xəlilov Mirteyyub. Kompozisiya üzrə medodik tövsiyyə, Bakı, Gənclik, 1999
2. Məmmədov S.İ. Təsviri sənətdə rəsm, Bakı, Çaşıoğlu, 1999
3. Фёдоров М. В. Рисунок и перспектива. Москва, Изд. Искусство, 1960
4. Ростовцев Н.Н., Соловьев С.А. Техническое рисование, Москва, «Просвещение», 1979
5. Ростовцев Н.Н. История методов обучения рисованию, Москва, Изд. Просвещение, 1982
6. Изобразительное искусство I курс. Учебно-методическое пособие под редакцией А.А.Унковского, Москва, «Просвещение», 1986


Hər bir mövzu ilə bağlı əlavə ədəbiyyat və oxu materialları mühazirədə qeyd olunur.

**Fənnin təsviri**

Bu fənn, ümumi (əsas) fənnlər siyahısına daxil olmaqla, bakalavr pilləsində təhsil alan tələbələrdə gələcək peşəkar dizayner yaradıcılıqları zamanı onlara lazım olan zəruri baza biliklərini təqdim edir, habelə onlara Təsviri sənətin və Rəsmin müxtəlif üsul və vasitələrini anlamaq, müxtəlif texnika və materiallardan bacarıqla istifadə etmək üçün lazım olan bilik və vərdişləri aşılayır.

Fənnin öyrənilməsi zamanı təsviri sənətin yaranması və inkişaf yolları, boyakarlıq, bədii qrafika, dekorativ-tətbiqi sənət, heykəltaraşlıq kimi növləri işıqlandırılır. Dərs zamanı tələbələr əşyaların, həmçinin natürmortun qurma qaydalarını öyrənir. Həcm-fəza təxəyyülünün inkişafı üçün çəkilən əşyaların forması hər tərəfli öyrənilərək təhlil edilir, yalnız xarici görkəmi deyil, onun konstruksiya və quruluşu dərk edilərək təsvir olunur.

**V. Fənnin məqsədi və vəzifələri**

Kursun tədrisi zamanı gələcək dizaynerlərə bədii təsvirin lazımi bilik və yeniliklərini aşılamaq məqsədilə bir neçə cisimdən ibarət natürmortun təsvirində perspektiva, tarazlıq, bütövlük, ritm, simmetriya, asimmetriya kimi kompozisiya qanunları, nisbət, kütlə kimi nüanslar, tonallıq, işıq-kölgənin verilmə üsulları açıqlanır. Həmçinin nəbati və həndəsi ornamentlərdən ibarət kompozisiyaların qurulma qaydaları və məzmunu, uyğun ahəngdar rəng palitrasının hazırlanması yolları işıqlandırılır.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- Təsviri sənət və Rəsmin xüsusiyyətləri barədə tələbələrdə tam təsəvvür formalaşdırmaq;
- Rəsmin müxtəlif üsul və vasitələrini, texnika və priyomlarını tələbələrə izah etmək;
- Tələbələrə tədris sistemində yerinə yetirilən realistik rəsmin peşəkar üsullarını başa salmaq;
- Müxtəlif material və texnikalardan peşəkarcasına istifadə etmək bacarıq və vərdişlərini tələbələrə aşılamaq;
- Tələbələrin dizayn sahəsində bacarıqlı və savadlı mütəxəssis kimi yetişdirməsindən ibarətdir.

**Fənnin tədris metodologiyası**

Qarşıya qoyulmuş məqsəd və nailiyyətləri əldə etmək üçün aşağıdakı tədris metodologiyasından istifadə olunur:

- *Şifahi (mühazirə, təqdimat, müzakirə);*
- *Əyani (video fayllar,reproduksiyalar, kitablar );*
- *Təcrübi;*
- *Emosional (müxtəlif assosiasiyaların, bədii obrazların təhlili).*

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, rəsm nümunələrinin öyrənilməsi və təhlili, təqdimat hazırlanması yaxud sərbəst işlərin yazılması və ev tapşırıqlarının ( sketç-nabroskaların) yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

**Öyrənmənin nəticələri:**

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- Təsviri sənətin və rəsmin nəzəriyyələrini;
- Təsviri sənətin növlərini və onların əsas xüsusiyyətlərini;
- Realistik peşəkar rəsmin yaranmasına təsir göstərən əsas amilləri;
- Peşəkar rəsmin qurulmasını müəyyən edən nəzəri və təcrübi üsulları;
- Həcm-fəza təxəyyülünün inkişafı və təhlili üsullarını;
- Çəkilən əşyanın formasının yalnız xarici görkəminin deyil, onun konstruksiya və quruluşunun dərk edilməsi.
- Perspektiv qanunauyğunluqlarının xüsusiyyətlərini;
- Tarazlıq, bütövlük, ritm, simmetriya, assimmetriya kimi kompozisiya qanunlarını
- Tonallıq, işıq-kölgənin verilmə yollarını. kompozisiyaların qurulma qaydalarını və məzmuna uyğun ahəngdar rəng palitrasının hazırlanması qayda qanunlarını

**Bacarmalıdırlar**:

- Qrafik vasitələrlə naturanı və ətraf aləmi peşəkarcasına əks etdirmək bacarığına yiyələnməlidirlər;
- Hazırlıq materialları nabroskalar, eskizlər, sketçlərlərdən bacarıqla istifadə etmə biliklərinə və vərdişlərinə malik olmalıdırlar:
- Predmetlərin həcm və formalarını, onların dəqiq konstruksiyalarını, material və fakturalarını, əşyaların yerləşdiyi planları düzgün əks etdirməyi bacarmalıdırlar.
- Xətti və fəza perspektivlərinin qanunlarından savadla istifadə etməlidirlər;
- Əşyaları müxtəlif sadə rakurslardan yaddaşdan çəkməyi bacarmalıdırlar;
- Liniya, ştrix və ləkədən peşəkarcasına istifadə etmək biliklərinə malik olmalıdırlar;
- Qrafika, dizayn. boyakarlıq, dekorativ tətbiqi sənət sahələrində bilik və bacarıqlarından istifadə edərək savadlı kompozisiyalar qurmağı bacarmalıdırlar:

**Prerekvizitlər**

Yoxdur.

**Fənnin mühazirə mövzuları**

Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı mövzularda mühazirələr təqdim ediləcək:

1. Təsviri sənət haqqında ümumi məlumat. Material və ləvazimatlar
2. Həndəsi formalı fiqurların və məişət əşyalarının naturadan işləmə qaydaları
3. Təsviri sənətdə perspektiva və işıq-kölgə anlayışı
4. Təsviri sənətin növləri. Qrafika. Boyakarlıq. Heykəltaraşlıq
5. Təsviri sənətin növləri. Dekorativ-tətbiqi sənət. Miniatür sənəti
6. Kompozisiya haqqında ümumi məlumat
7. Rəng. Rəngin emosional-psixoloji təsiri
8. Təsviri sənətdə üslub və istiqamətlər

**Fənnin mühazirə mətnləri**

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində ( www.vu.aseu.az ) yerləşdirilir.

**Mövzuların məzmunu və tədris-tematik bölgüsü**

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| **1** | Təsviri sənət haqqında ümumi məlumat. Material və ləvazimatlar | Təsviri sənət incəsənətin bir növü kimi. Təsviri sənətin yaranma tarixi. Təsviri sənətdə "obraz" anlayışı. Rəsm - realist təsviri sənətin əsası kimi, rəssamın fantaziyasını, hislərini, düşüncələrini müəyyən layihədə əks etdirən bir sənət kimi.<br>Bədii materiallar və onların texnikaları. Əsas tədris aləti - qrafit karandaş. Sadə karandaşın qədim tarixçəsi. Rəngli karandaşlar. Kömür. Kömürün digər materiallar ilə birgə işlənməsi. Sanqina. Pastel və onun işlənmə texnikası. Pero (Qələm) və tuş. Birtonlu akvarel. Monoxrom rəngkarlıq - qrizayl. Kitab illüstrasiyalarında qrafik vasitə kimi istifadə edilən akvarel. Fırça. Akvarel üçün ən yaxşı fırçalar. Fırça ilə kağız üzərində işlənmə texnikası. Flomastrlar. Kağız və növləri. Pozan.<br>Maddi texniki vəsaitləri bilmək və istifadə etmək bacarığının əhəmiyyəti. | **2 (**fəsil 3.1);<br>**3 (**fəsil 1); |
| **2** | Həndəsi formalı fiqurların və məişət əşyalarının naturadan işləmə qaydaları | Gips həndəsi formalı əşyaların naturadan rəsminə daxil olan məsələlər - verilmiş natürmortun vərəq üzərində düzgün yerləşdirilməsi (kompanovka); - çəkilən əşyaların proporsiyalarının müqayisəsi; - perspektiv qanunlarını nəzərə alaraq əşyaların qurulması; - işıq-kölgənin verilməsi. | **1** (fəsil 3)<br>**2** (fəsil 3.2);<br>**3** (fəsil 9); |

| | | | |
|---|---|---|---|
| | | Məişət əşyalarının çəkilməsinin rəssam üçün əhəmiyyəti. Perspektiva. Əşyanın nisbətini düzgün vermək üçün onun bir hissəsini digəri ilə müqaisə etmək bacarığı. İşıq-kölgə, yarımton, işıq ləkəsi və refleks vasitəsilə həcmin verilmə yolları. Natürmortun düzgün tərtibi. Natürmortun kompozisiya mərkəzi. Natürmort üzərində iş prosesinin metodik ardıcıllığının mərhələləri | |
| **3** | Təsviri sənətdə perspektiva və işıq-kölgə anlayışı | Perspektivin nəzəri əsasları və İntibah dövrü rəssamları. Təsviri incəsənətdə perspektiva. Xətti perspektiv. Hava perspektivi. İntibah dövründə təsviri incəsənət perspektivası. P.P.Çastikov perspektiv nəzəriyyəsi haqqında. Əşyanın işıqlanması. Ton, kölgə. Səthlər arasında ton fərqi, ton proporsiyası (nisbəti), ton münasibətləri. Obyektlərin həcminin müəyyən edilməsi. Tonun köməyi ilə əşyanın aşkarlanması, formanın həcminin verilməsi. Kubun formasının ton və ştrix vasitəsilə müəyyənləşdirilməsi. | **1 (**fəsil 2 və 3);<br>**2** (fəsil 3.4);<br>**3** (fəsil 2 və 10) |
| **4** | Təsviri sənətin növləri. Qrafika. Boyakarlıq. Heykəltaraşlıq | Təsviri sənətin növü – qrafika. Qrafikanın işlənmə texnikaları: rəsm, çap qrafikası. Qrafikanın spesifikası, qrafik texnikalar və üsullar. Estamp. Sahəsinə görə qrafikanın növləri.<br>Təsviri sənət növü olan boyakarlıq. Rəng çalarları. Dəzgah boyakarlığı. Monumental boyakarlıq. Freska. Teatr-dekorativ boyakarlığı. Miniatür boyakarlıq.<br>Boyakarlıqda janrlar. Portret janrı. Mənzərə janrı. Realist peyzaj. Memarlıq boyakarlığı janrı. Batal janr. Natürmort. Marina. Animal janr. Boyakarlıq tarixinə baxış. Təsviri sənət növü olan boyakarlıq. Rəng çalarları. Dəzgah boyakarlığı. Monumental boyakarlıq. Freska. Teatr-dekorativ boyakarlığı. Miniatür boyakarlıq.<br>Boyakarlıqda janrlar. Portret janrı. Mənzərə janrı. Realist peyzaj. Memarlıq boyakarlığı janrı. Batal janr. Natürmort. Marina. Animal janr. Boyakarlıq tarixinə baxış. Rəngkarlıqda icra edilən texnikalar: akvarel, quaş, yağlı boya, tempera, pastel. Akvarel texnikası və bu texnika ilə iş prosesi üçün beş tövsiyyə. Quaş | **1** (fəsil 1 və 9);<br>**2** (fəsil 1); |

| | | | |
|---|---|---|---|
| | | boyalarla işləmə texnikası, yağlı boya texnikası, yağlı boyakarlıq üçün kətanın astarlanması, temperli rəsm texnikasının nüansları.<br>Heykəltaraşlıq haqda ümumi məlumat. Heykəltaraşlıq tarixinə baxış. Heykəltaraşlığın ibtidai forması - daş fiqurlar. Həcmli və ya dəyirmi heykəllər; relyef heykəlləri. Relyef - barelyef və qorelyef. Heykəltəraşlıq sənətinin üç sahəsi: 1.Monumental, 2.Dekorativ, 3.Dəzgah heykəltaraşlığı. Heykəltaraşlıq texnikaları | |
| **5** | Təsviri sənətin növləri. Dekorativ-tətbiqi sənət. Miniatür sənəti | Təsviri sənətin əsas növlərindən biri - dekorativ tətbiqi sənət. Dekorativ tətbiqi sənətin bütün növlərində istifadə olunan ornamentlərin formasına görə növləri. Xalq yaradıcılığından qaynaqlanan dekorativ-tətbiqi sənətin növləri. Keramika, metal və şüşədən hazırlanan məmulatlar. Mozaika və vitraj. Ağac və daş üzərində oyma. Zərgərlik. Duluzçuluq. Bədii tikmə və xalçaçılıq.<br>Müsəlman Şərqi xalqlarının çoxəsrlik incəsənət tarixinin ən maraqlı səhifəsi- miniatür sənəti. Miniatür rəssamlığın hümanist məzmunu və ideya istiqamətini müəyyənləşdirən Şərq poeziyası. Şərq miniatürünün şah əsərləri. Təbriz məktəbi. Sultan Məhəmməd yaradıcılığı.<br>Azərbaycan miniatürünün özünəməxsusluğu. | **1** (fəsil 5 və 10);<br>**2** (fəsil 4 və 5);<br>**3** (fəsil 6); |
| **6** | Kompozisiya haqqında ümumi məlumat | Təsviri sənətin ən mühüm sahəsi olan XIX əsrdə kompozisiyanın inkişafı. Kompozisiyanın komponentləri. Kompozisiyanın əsas qanun, qayda və usulları - bütövlük qanunu; - tipikləşdirmə qanunu; - təzadlar qanunu; - kompozisiyada bütün hissələrin vahid ideyaya tabe olması qanunu. Kompozisiyada simmetriya və asimmetriya. Kompozisiyada hərəkət. Əsərin format və ölçüləri. Baxış nöqtəsi və səviyyəsi. | **1** (fəsil 4 və 7);<br>**2** (fəsil 7 və 9); |
| **7** | Rəng. Rəngin emosional-psixoloji təsiri | Rəng. İsaak Nyutonun rəng spektoru. Spektral rənglər. Xromatik və axromatik rənglər. Rəng dairəsi. Üç əsas rəng. Ana rəng, Ara rənglər. Zidd rənglər (kontrast). Rəng harmoniyası. İsti və soyuq rənglər.<br>Rənglərin insan psixologiyasına təsiri. Parlaq | **1 (**fəsil 7);<br>**2** (fəsil 8) |

| | | | |
|---|---|---|---|
| | | rənglər, tutqun rənglər. | |
| **8** | Təsviri sənətdə üslub və istiqamətlər | Barokko üslubu. Klassisizm (nümunəvi) üslubu. Rokoko (balıqqulağı) üslubu (XVIII əsrin əvvəlləri). Romantizm (XVIII əsrin sonu, XIX əsrin əvvəlləri). Neoklassisizm (XIX əsrin I yarısı).<br>XIX əsrin II yarısında yaranan üslublar. | **1** (fəsil 8);<br>**2** (fəsil 10);<br>**3** (fəsil 3); |
| **Yekun imtahan** | | | |

**Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə**

Fənnin məşğələ mövzuları:

1. Həndəsi fiqurların konstruktiv qurulması
2. Həndəsi fiqurların - kub, piramida və s. işıq-kölgə ilə işlənilməsi, **1-ci mərhələ**
3. Həndəsi fiqurların - kub, piramida və s. işıq-kölgə ilə işlənilməsi, **2-ci mərhələ**
4. Drapirovkanın rəsmi
5. Sadə kompozisiyanın qurulması
6. Mürəkkəb kompozisiyanın qurulma qaydaları
7. Nəbati kompozisiyanın işlənilməsi
8. Həndəsi kompozisiyanın işlənilməsi
9. Məişət əşyalarından ibarət natürmortun rəsmi, **1-ci mərhələ**
10. Məişət əşyalarından ibarət natürmortun rəsmi, **2-ci mərhələ**
11. Həndəsi fiqurlar daxil olmaqla məişət əşyalarından ibarət natürmortun işlənilməsi, **1-ci mərhələ**
12. Həndəsi fiqurlar daxil olmaqla məişət əşyalarından ibarət natürmortun işlənilməsi, **2-ci mərhələ**
13. Gips ornamentin rəsmi, **1-ci mərhələ**
14. Gips ornamentin rəsmi, **2-ci mərhələ**
15. İşlərə baxış və ümumi analizlər

**Cari qiymətləndirilmə**

Dizayn ixtisasıda ***qabiliyyət tələb edən fənlər*** üzrə cari qiymətləndirmədə - 50 balın 20 balı tələbələrin aktivlik balı (seminar məşğələləri zamanı tapşırıqların icrası əsasında müəyyən edilir) hesabına formalaşdırılır. Qalan 30 bal isə semestr ərzində (hər ay ərzində 2 iş olmaqla) üzrə Əlavə 3-də qeyd olunan qaydada yerinə yetirilən və hər biri 5 balla qiymətləndirilən 6 fərdi işin qiymətləndirilməsi əsasında təmin edilir. Bu halda əlavə bal almaq istəyən tələbələr tərəfindən 7-ci fərdi işin təqdim edilməsinə icazə verilmir. Aralıq qiymətləndirmə üzrə 50 bal - isə qabiliyyət imtahanı kimi 120 dəqiqə ərzində keçirilən sessiya imtahanın zamanı çəkilən 1 rəsmin qiymətləndirilməsi hesabına təmin edilir. İmtahan nəticələri sistemə İmtahan Mərkəzi tərəfindən daxil edilir.

**Fənn üzrə kurs işi**

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

**Dərsə davamiyyət**

Bakalavriat səviyyələri üzrə təhsilalanlara 25%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

**Fərdi iş tapşırıqlarına qoyulan qaydalar**

Qabiliyyət tələb edən fənlər (dizayn ixtisasında) üzrə fərdi iştapşırıqlarının yerinə yetirilməsi

Tələbələrə sillabus üzrə mövzulara uyğun olaraq 6 fərdi iş tapşırığı verilir. Verilən tapşırıqların işləmə qaydaları aşağıdakı kimi müəyyən edilir:

1. Kompanovka - əşyaların və yaxud kompozisiyanın vərəqdə düzgün yerləşdirilməklə çəkilməsi.

2. Proporsiyaların düzgün təyin edilməsi.

3. Köməkçi xətlərdən istifadə edərək formanın qurulması.

4. Perspektiva qanunlarına uyğun tapşırığın konstruktiv həlli.

5. Kompozisiya qanunlarına riayət edərək tapşırığın tam olaraq konstruktiv həlli.

6. Rəng palitrasının müəyyənləşdirilməsi.

7. Predmetlərin formasının, həcminin və yaxud hər hansı bir kompozisiyanın rənglə işlənməsi:

7.1. Natürmortun rəng həlli:

7.1.1. Əsas rəng tonlarının verilməsi;

7.1.2. Şəxsi və düşən kölgələrin verilməsi;

7.1.3. Predmetlərin formasının işıq-kölgə və rənglə modelləşdirilməsi;

7.1.4. Predmetlərin rənglə fakturasının verilməsi;

7.1.5. Fəzanın rənglə işlənilməsi;

7.1.6. Natürmortun ümumiləşdirilməsi;

7.2. Kompozisiyanın (ornamental, tematik, qrafik, dekorativ və s.) rəng həlli:

7.2.1. Əsas rəng tonlarının verilməsi;

7.2.2. Ornamental kompozisiyaların tapşırıqdan asılı olaraq simmetriyaqanunlarına riayət edərək xromatik və yaxud axromatk çalarlarla işlənilməsi;

7.2.3. Dekorativ tapşırıqların xromatik çalarlarla işlənilməsi və kontur xətlərin vurğulayaraq verilməsi;

7.2.4. Qrafik işlərin xromatik və yaxud axromatk çalarlarla qrafik üslubda işlənilməsi və kontur xətlərin vurğulayaraq verilməsi;

7.2.5. Tematik tapşırıqların qrizayl (monoxrom) və yaxud xromatik çalarlarla işlənilməsi;

7.2.6. Tapşırığın ümumiləşdirilməsi.

Tapşırıqların yerinə yetirilməsində istifadə olunan material və texnikalar:

1. A3, A2 formatında kağız və yaxud kətan.

2. Sadə qələm, rəngli qələm, rəngli gel qələm, flomaster, rəngli marker, pastel, kömür, sangina, sulu (akvarel, akril, quaş və s.) boya, yağlı boya.

Qarışıq texnikadan istifadə etməyə icazə verilir.

**Aralıq qiymətləndirilmə**

Fənnin tədrisinin sonunda bir dəfə yekun imtahan təşkil olunur. Tələbənin imtahandakı cavabı 0-50 bal aralığında (maksimum 50 bal) qiymətləndirilə bilər. Fənnin tədrisi

prosesində tələbənin əldə etdiyi bilik və bacarıqları Aralıq qiymətləndirmə üzrə 50 bal qabiliyyət imtahanı kimi 180 dəqiqə ərzində keçirilən sessiya imtahanın zamanı çəkilən 1 rəsmin qiymətləndirilməsi hesabına təmin edilir. İmtahan nəticələri sistemə aidiyyəti kafedra tərəfindən daxil edilir. Tələbə iştirak etmədikdə "0" (sıfır) bal qeyd olunur. Yekun imtahanda tələbə minimum 17 bal toplamazsa, onda imtahana qədər yığılan ballar toplanmır, tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır. İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə bağlı tələbənin hər-hansı şikayəti olarsa, tələbə Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya komissiyasına müraciət edə bilər.

**Fənn üzrə yekun qiymətləndirmə**

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| Aralıq qiymətləndirmə (final) | 50 | 50 % |
| Seminar (məşğələ) dərslərin nəticələrinə görə aktivlik | 20 | 20 % |
| Tələbələrin fərdi işin qiymətləndirilməsinə görə | 30 | 30% |
| **Cəmi:** | **100** | **100 %** |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - "qeyri-kafi" – F
51-60 bal -"qənaətbəxş" – E
61-70 bal - "kafi" – D
71-80 bal - "yaxşı" – C
81-90 bal - "çox yaxşı" – B
91-100 bal - "əla" – A

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi "qeyri-kafi" qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.